# Qeyri-neft sənayesinin inkişafı diqqət mərkəzindədir

***Son illər ölkədə investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sənaye istehsalının artırılması və qeyri-neft sektorunun inkişaf etdirilməsinə xüsusi önəm verilib. Bütün bunlarla bərabər, sahibkarların ixrac potensialının gücləndirilməsi, potensial tərəfdaşların tapılması və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsi də diqqət mərkəzində saxlanılıb. Məhz bunun nəticəsidir ki, hazırda respublikada qeyri-neft sektorunun şaxələndirilməsi, qeyri-neft sənayesinin inkişafı, Azərbaycan məhsullarının ixrac coğrafiyasının genişləndirilməsi məqsədilə intensiv tədbirlər həyata keçirilir.***



Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi siyasətinin mühüm istiqamətlərindən olan sənayenin inkişafı istiqamətində kompleks işlər görülür, istehsal və ixrac potensialının artırılması, sərmayə qoyuluşunun stimullaşdırılması üçün səmərəli mexanizmlər tətbiq edilir. Belə mexanizmlərdən biri də investisiya fəaliyyətinin genişləndirilməsi və təşviqi məqsədilə tətbiq edilən investisiya təşviqi sənədidir. İqtisadiyyat Nazirliyi tərəfindən verilən investisiya təşviqi sənədi sənaye, kənd təsərrüfatı, logistika və turizm sahələri ilə məşğul olan hüquqi şəxs və fərdi sahibkarlara vergi və gömrük güzəştlərindən yararlanmaq imkanı yaradır. Belə ki, investisiya təşviqi sənədini almış fərdi sahibkar 7 il müddətinə gəlirin 50 faizi, hüquqi şəxslər üzrə isə mənfəətin 50 faizi üzrə vergidən, həmçinin torpaq və əmlak vergisindən azad edilirlər. Təsdiqedici sənəd isə investisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı vergi və gömrük güzəştləri əldə etmək üçün əsas yaradır.

İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkarlar təsdiqedici sənəd əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına görə 7 il müddətinə ƏDV-dən və gömrük rüsumundan tam azad olunurlar.

İndiyədək 421 sahibkarlıq subyektinin 504 layihəsinə investisiya təşviqi sənədi təqdim edilib. İnvestisiya təşviqi sənədi verilmiş layihələrin 59 faizi sənaye, 39 faizi kənd təsərrüfatı, 1 faizi logistika, 1 faizi isə turizm sahəsini əhatə edir. Bu layihələrin reallaşdırılması nəticəsində yerli istehsala 4,58 milyard manatdan artıq investisiya yatırılacağı, 34 mindən çox yeni iş yerinin yaradılacağı nəzərdə tutulur.

Təşviq edilmiş layihələrin 87 faizi regionların payına düşür. İnvestisiya təşviqi sənədi verilmiş 350-dən artıq layihə fəaliyyətə başlayıb və 26 mindən çox iş yeri yaradılıb. Fəaliyyət göstərən müəssisələr üzrə istehsal olunan məhsullar Rusiya, Gürcüstan, Birləşmiş Ərəb Əmirlikləri və s. ölkələrə ixrac olunur. İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara 4188 təsdiqedici sənəd verilib, nəticədə, təqribən, 761,2 milyon ABŞ dolları dəyərində texnika, texnoloji avadanlıq və qurğular idxal zamanı tətbiq olunan vergi və rüsumlardan azad olunub.

Təqdim edilən təsdiqedici sənədlər əsasında bir sıra Avropa ölkələrindən, həmçinin Çin, Türkiyə, İsrail və sair ölkələrdən müasir texnoloji avadanlıqlar idxal edilib. Bütün bunların nəticəsi olaraq, qida məhsulları, içki, kağız və karton, tikinti materialları, rezin və plastmas və sair sahələr üzrə məhsullar istehsal edən yerli müəssisələrin istehsal və emal gücü artıb, onların ixracda payı əhəmiyyətli dərəcədə yüksəlib.

Bu ilin yeddi ayında 24 sahibkarlıq subyektinin 24 layihəsinə investisiya təşviqi sənədi təqdim edilib. İnvestisiya təşviqi sənədi verilmiş layihələrin reallaşması nəticəsində yerli istehsala 143 milyon manatadək investisiya yatırılacağı, 1300-ə yaxın yeni iş yerinin açılacağı nəzərdə tutulur. Bu dövrdə təşviq edilmiş layihələrin 83 faizi regionların payına düşür. Təqdim edilmiş investisiya təşviqi sənədlərinin 54 faizi sənaye, 42 faizi kənd təsərrüfatı, 4 faizi isə logistika sahələri üzrə layihələri əhatə edir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "İxrac icmalı"nın avqust sayında bildirilir ki, cari ilin ötən 7 ayı ərzində Azərbaycanın ixracı 11,4 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə 1,4 milyard dollar təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 316,7 milyon dollar və ya 30,5 faiz artıb. Cari ilin yeddi ayı ərzində qeyri-neft ixracında meyvə-tərəvəz məhsulları 338 milyon dollarla əsas paya malik olub.

Müvafiq dövr ərzində qeyri-neft ixracında qara metallar və onlardan hazırlanan məmulatlar 2,4 dəfə, pambıq iplik 2,8 dəfə, şəkər 2,3 dəfə, kimya sənayesi məhsulları 37 faiz, pambıq lifi 88,5 faiz, alüminium və ondan hazırlanan məmulatlarda isə 42 faiz artım qeydə alınıb.

Normallaşma prosesinin davam etdiyi dövrdə iyul ayı üzrə ixrac 2,6 milyard dollar təşkil edib. Qeyri-neft sektoru üzrə ixracda artım 55,7 faiz təşkil etməklə 192 milyon dollar olub. 2021-ci ilin iyul ayı ərzində yeyinti məhsulları üzrə ixrac ötən ilin müvafiq ayı ilə müqayisədə 6 faiz artaraq 43 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 80,1 faiz artaraq 149 milyon dollar təşkil edib.

Yeri gəlmişkən, hazırda ölkədə ümumi daxili məhsulun ½-dən, o cümlədən, qeyri-neft iqtisadiyyatının ¼-dən çoxu sənaye sahələrində istehsal olunur. Bu məqamda son illərdə qeyri-neft sənayesində əldə edilən müəyyən müsbət göstəriciləri və görülən işlərin bir qismini xatırlatmaq istərdik:

– pandemiya və xarici təsirlərə baxmayaraq qeyri-neft sənayesi ən yüksək templərlə artıb (2020-ci ildə 12,5 faiz);

–ötən il sənaye zonalarında (parklar və məhəllələr) 1,3 milyard manat həcmində məhsul istehsal olunub, bunun 55 faizini ixrac təşkil edib;

–sənaye parklarında rezident statuslu 50 müəssisədən 35-i fəaliyyətə başlayıb, 2020-ci ilədək 6 milyard manatdan çox investisiya yatırıb və 9 mindən artıq iş yeri yaradılıb;

–sənaye məhəllələrində iştirakçı statuslu 30 müəssisədən 17-si fəaliyyətə başlayıb, indiyədək 73 milyon manat investisiya yatırılıb və 280-dən artıq iş yeri yaradılıb.

Qeyri-neft sənayesinin inkişafında mühüm rol oynayacaq bir məqamı da qeyd etmək istərdik. Belə ki, Prezident İlham Əliyevin müvafiq fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyindəki "Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətin əsasında İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu İqtisadi Zonaların İnkişafı Agentliyi yaradılıb. Bu məqsədlə ölkədəki bəzi sənaye parkları və məhəllələri "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin tabeliyindən çıxarılıb. Prezident İlham Əliyev bununla bağlı 2021-ci il yanvarın 22-də sərəncam imzalayıb.

Sərəncama əsasən, Neftçala Sənaye Məhəlləsi, Mingəçevir Sənaye Parkı, Qaradağ Sənaye Parkı, Masallı Sənaye Məhəlləsi, Pirallahı Sənaye Parkı, Hacıqabul və Sabirabad sənaye məhəllələri İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinin tabeliyinə verilib.

Xatırladaq ki, İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin yaradılması ölkədəki mövcud sənaye parkları, sənaye məhəllələri və aqroparklar sahəsində idarəetməni, habelə nəzarət mexanizmlərini daha da təkmilləşdirmək, bu sahədə həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq, daha sıx koordinasiyanı, həmçinin sistemliliyi təmin etmək məqsədi daşıyır.

Sənaye parkları, sənaye məhəllələri və aqroparkların işinin səmərəli, yeni tənzimləyici və idarəetmə çərçivəsində təşkili ölkəyə sərmayə axını, ixracın genişlənməsi və iş yerlərinin yaradılması prosesini sürətləndirəcək. Bununla bərabər 4-cü sənaye inqilabının texnologiyalarının ölkəyə transfer edilməsini də şərtləndirəcək.

Şübhəsiz ki, qeyri-neft iqtisadiyyatında nəzərə çarpan müsbət dinamika müvafiq sahədə aparılan islahatların məntiqi nəticəsidir. Belə ki:

– Azərbaycanın regionda güclü sənaye mərkəzinə çevrilməsini təmin etmək məqsədi ilə "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" hazırlanıb;

– sənaye sahələri modernləşdirilib və strukturu təkmilləşdirilib, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli, elmtutumlu və innovativ istehsalı genişləndirilib;

– sənayedə istehsalın diversifikasiyası genişləndirilib, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye parkları və sənaye məhəllləsi fəaliyyətə başlayıb;

– kosmik sənaye quruculuğu inkişaf etdirilib, "Azərbaycan Respublikasında peyk vasitəsilə Yerin məsafədən müşahidəsi xidmətlərinin inkişafına dair 2019-2022-ci illər üçün Dövlət Proqramı" hazırlanıb, peyk xidmətlərinin ixracına başlanılıb;

– qeyri-neft sənayesinin əsas halqalarını formalaşdıran maşınqayırma, avadanlıq istehsalı, cihazqayırma və tikinti materiallarının istehsalı sahələrində yeni rəqabətqabiliyyətli müəssisələr yaradılıb, o cümlədən Gəncədə traktor və kənd təsərrüfatı texnikası, Naxçıvanda avtomobil, Mingəçevirdə elektron avadanlıqlar, Sumqayıtda günəş panellər, Qaradağda metal konstruksiyalar, Hacıqabulda seramik plitələr istehsalı müəssisələri qurulub;

– Bakıda və regionlarda toxuculuq, geyim istehsalı, dəri məmulatları və ayaqqabı istehsalı, kağız və karton istehsalı, mebel istehsalı və digər qeyri-neft emal sənayesi sahələrində fəaliyyət göstərən yeni müəssisələr tikilib istifadəyə verilib.

Bütün bunlarla bərabər, ölkədə güclü müdafiə sənayesinin qurulması istiqamətində 50-yə yaxın yeni istehsal sahəsi yaradılıb, hərbi təyinatlı məhsullarla yanaşı, mülki məmulatların da istehsalı təşkil olunub. Eyni zamanda, ərzaq məhsullarının istehsalı sahəsində İmişlidə şəkər zavodu, Abşeronda duz zavodu, Sumqayıtda bitki yağları emalı zavodu, Oğuzda qarğıdalı emalı və qlükoza İstehsalı zavodu, müxtəlif bölgələrdə süd kombinatları, konserv zavodları və digər müəssisələr istismara verilib, Ələt azad iqtisadi zonası fəaliyyətə başlayıb.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 8 avqust.- S.4.